Address: # 7Alzmir ave.,
Baku AZ 1065, Azerbaijan
Tel./Fax: (+994 12) 497 43 03
Cell: (+994 50) 223 35 52
E-mail: said@azerinet.com
gaaudit@gmail.com
G&A Audit Company LTD

# MÜSTƏQİL AUDİTORUN HESABATI

## "A-Qroup Sığorta Şirkəti ASC-nin rəhbərliyinə

Biz, "A-Qroup Sığorta Şirkəti" ASC-nin 2018-ci ilin maliyyə hesabatlarının düzgünlüyünün auditini apardıq.

*Maliyyə hesabatları üzrə rəhbərliyin məsuliyyəti*
Rəhbərlik göstərilən maliyyə hesabatlarının "Milli Mühasibat Uçotu Hesabatı Standarları", BAS (Beynəlxalq Audit Standartlarına) və digər qanunvericilik aktlarına uyğun olaraq hazırlanması və düzgün təqdim edilməsi üzrə məsuliyyət daşıyır. Bu məsuliyyətə fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli səhvlər olmayan maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsi üçün müvafiq daxili nəzarətin təşkili, tətbiqi və saxlanması; müvafiq uçot siyasətinin seçilməsi və tətbiqi, və müəyyən şəraitə münasib olan uçot ehtimallarının müəyyən edilməsi daxildir.

*Auditorun məsuliyəti*
Bizim vəzifəmiz apardığımız audit əsasında həmin maliyyə hesabatları üzrə rəy ifadə etməkdir. Biz auditi beynəlxalq audit standartlarına uyğun aparmışıq. Bu standartlar bizdən etik normalarına riayət etməyi və auditin planlaşdırılması və aparılmasını maliyyə hesabatlarında əhəmiyyətli səhvlərə yol verilmədiyinə kifayət qədər əmin olacaq tərzdə həyata keçirməyi tələb edir.

Auditə maliyyə hesabatlarında göstərilən məbləğlər və açıqlamalar barədə audit sübutunun əldə edilməsi üçün prosedurların həyata keçirilməsi daxildir. Seçilmiş prosedurlar, eləcə də fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq, maliyyə hesabatlarının əhəmiyyətli səhvlər riskinin qiymətləndirilməsi auditorun mühakiməsindən asılıdır. Tərəfimizdən risklər qiymətləndirilərkən audit prosedurların işlənib hazırlanması məqsədilə şirkətin maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsinə aid olan daxili nəzarət elementləri nəzərə alınmış, lakin bu zaman şirkətin daxili nəzarət sisteminin səmərəliliyi haqqında rəy bildirmək məqsədi güdülmür.

Auditə, həmçinin, tətbiq edilmiş uçot prinsiplərinin və rəhbərlik tərəfindən edilmiş mühüm ehtimalların qiymətləndirilməsi, o cümlədən ümumilikdə maliyyə hesabatlarının təqdim edilməsi üzrə qiymətləndirmənin aparılması daxildir.

Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutu rəyimizin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edir.

*Rəy*
Bizim fikrimizcə, 2018-ci il üzrə təqdim edilmiş maliyyə hesabatları "Milli Mühasibat Uçotu Hesabatı Standartları"na, (BAS) Beynəlxalq Audit Standartlarına və digər qanunvericilik aktlarına uyğun olaraq düzgün və ədalətli təsəvvür yaradır.

Müstəqil auditorun hesabatı 11.01.2019-cu il tarixdə eyni qüvvəyə malik iki nüsxədə tərtib edilmişdir. Bunlardan biri sifarişçitəsərrüfat subyektində, ikincisi isə "G and A Audit " MMC-də saxlanılır.

**"G and A Audit" MMC-nin**

**Direktoru:** **Səid Qafarov**

AZƏRBAYCAN RESPUBLİKASI Məhdud Məsuliyyətli Cəmiyyəti G and A Audit Limited Liability Company AZERBAIJAN REPUBLIC